“Baku Crystal Hall”da keçirilən və AzTV kanalı ilə yayımlanan oyunda noyabr ayının çempionluğu uğrunda keçiriləcək görüşün növbəti - ikinci finalçısı müəyyənləşib.

Oyun iki seçim və iki final görüşündən ibarət olub. İlk seçim görüşündə “Sumqayıt” və “Qəbələ” komandaları qarşılaşıblar. Sumqayıtlılar 5:0 hesabı ilə tam qələbə qazanıblar. İkinci görüş “Parabellum” ilə “Mingəçevir” arasında olub. “Parabellum” da rəqibini eyni hesabla məğlubiyyətə uğradıb.

Final görüşlərində “Sumqayıt” və “Parabellum” komandaları qarşılaşıb. İlk fınal görüşündə “Sumqayıt” 5:2, ikinci final görüşündə “Parabellum” 6:3 hesabı ilə qalib gəlib. Nəticədə ayın ikinci fınalçısını müəyyənləşdirmək üçün əlavə suala ehtiyac yaranıb. Həmin sualı tez və düzgün cavablandıran “Sumqayıt” daha güclü olduğunu sübut edib və ayın final oyununa vəsiqə qazanıb.

“Bilik kuboku”nun sentyabr, oktyabr və noyabr ayları üzrə qaliblərinin qarşılaşacağı final oyunu isə dekabrın 14-də keçiriləcək.